# “Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 fevral 2019-cu il
№ 544

Azərbaycan Respublikası Prezidentinin
2019-cu il 22 fevral tarixli 544 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Azərbaycan Respublikasının Dənizkənarı Milli Parkı haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. "Bakı şəhərindəki Dənizkənarı bulvara Milli Park statusu verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 50 nömrəli Fərmanına əsasən, Bakı şəhərindəki Dənizkənarı bulvara Dənizkənarı Milli Park (bundan sonra – Milli Park) statusu verilmişdir.

1.2. Milli Parkın ərazisi respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aiddir və bu ərazilərdə olan torpaq, su və bitki aləmi onun daimi istifadəsinə verilir.

1.3. Milli Park Bakı şəhərinin Səbail, Nəsimi və Xətai inzibati rayonlarının ərazisində yerləşir.

1.4. Milli Parkı "Dənizkənarı Bulvar İdarəsi" publik hüquqi şəxs (bundan sonra – İdarə) idarə edir. İdarənin Milli Parkın fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək, habelə ərazidə xüsusi mühafizə rejimini və bu Əsasnamədə nəzərdə tutulan digər rejimləri təmin etmək üzrə müstəsna səlahiyyətləri vardır.

## 2. Milli Parkın yaradılmasının məqsədləri və vəzifələri

2.1. Milli Parkın yaradılmasının məqsədi ətraf mühitin mühafizəsini, ondan səmərəli istifadəni, Bakı şəhərinin estetik gözəlliyinin, abadlığının, tarixi simasının qorunmasını və inkişaf etdirilməsini, şəhər sakinləri və turistlərin əlverişli istirahətinin təşkilini, Milli Park ərazisində yerləşən tikili və qurğuların, nadir bitki növlərinin qorunub saxlanılmasını təmin etməkdən ibarətdir. Milli Parkdan aşağıdakı məqsədlərlə istifadə oluna bilər:

2.1.1. təbiəti mühafizə;

2.1.2. sağlamlaşdırma;

2.1.3. turizm və rekreasiya.

2.2. Milli Parkda onun məqsədli təyinatına, təbiət və mədəniyyət obyektlərinin mühafizəsi, bərpası və istifadəsi ilə bağlı müəyyən edilmiş tələblərə zidd olmayan şərtlərlə başqa fəaliyyət növləri həyata keçirilə bilər.

2.3. Milli Parkın əsas vəzifələri aşağıdakılardır:

2.3.1. təbiət komplekslərini, nadir və etalon təbiət ərazilərini, mədəniyyət obyektlərini qoruyub saxlamaq;

2.3.2. turizm və istirahət (rekreasiya) üçün şərait yaratmaq;

2.3.3. təbiəti mühafizənin və ekoloji maarifçiliyin elmi metodlarını hazırlamaq və tətbiq etmək;

2.3.4. əhalini ekoloji maarifləndirmək;

2.3.5. zədələnmiş təbiət və mədəniyyət obyektlərini bərpa etmək.

## 3. Milli Parkın xüsusi mühafizə rejiminin xüsusiyyətləri

3.1. Milli Parkın ərazisində onun təbiət, tarix-mədəniyyət və digər xüsusiyyətləri nəzərə alınmaqla, xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq oluna və aşağıdakı fəaliyyət zonaları müəyyən edilə bilər:

3.1.1. xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar;

3.1.2. təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar;

3.1.3. turizm və rekreasiya zonaları;

3.1.4. turistlərə və digər şəxslərə xidmət göstərilən zonalar;

3.1.5. Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonaları.

3.2. Turizm və rekreasiya zonalarında turizm və rekreasiya məqsədləri üçün təbiətdən istifadənin ayrı-ayrı növlərinə (balıq ovu və digər su bioresurslarının idman və həvəskar ovu və s.) yol verilir.

3.3. Milli Park ərazisinin sanitariya-mühafizə zonasında "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 10-1.7-ci maddəsinə müvafiq olaraq aşağıdakılar qadağan edilir:

3.3.1. yeni yaşayış məntəqələrinin salınması;

3.3.2. ekoloji təhlükə yaradan müəssisələrin, o cümlədən kimya, nüvə energetikası və metallurgiya sənayesi obyektlərinin yerləşdirilməsi və istismarı;

3.3.3. geoloji kəşfiyyat işlərinin aparılması, faydalı qazıntıların çıxarılması və emalı;

3.3.4. meşələrdə əsas istifadə qırıntısı;

3.3.5. aqrokimyəvi maddələrdən və pestisidlərdən istifadə;

3.3.6. yerli fauna və flora növlərinə uyğun olmayan növlərin introduksiyası;

3.3.7. ərazinin hidroloji rejimini pozan və torpağın münbitliyinə təsir edən müvafiq işlərin görülməsi.

## 4. Milli Parkın mühafizəsi

Milli Parkın mühafizəsini İdarənin mühafizə xidməti təmin edir.

## 5. Milli Parkın təsərrüfat fəaliyyəti

5.1. Milli Parkın təsərrüfat fəaliyyəti təbiət və mədəniyyət obyektlərinin mühafizəsindən, onlara xidmət göstərilməsindən, bərpasının həyata keçirilməsindən, istirahət və turizm xidmətlərinin təşkilindən ibarətdir.

5.2. Milli Parkın ərazisində mehmanxanaların, kempinqlərin, turist bazalarının, iaşə və digər bu kimi obyektlərin tikintisi və istifadəsi, əhalinin istirahəti məqsədilə digər şərait yaradılması İdarənin hüquqi və fiziki şəxslərlə bağladığı müqavilələr əsasında həyata keçirilə bilər.

5.3. Milli Parkda təbiət obyektlərinin mühafizəsi, bərpası və istifadəsi üzrə müəyyən edilmiş tələblərə zidd olmayan başqa fəaliyyət növləri, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Turizm haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq İdarənin fiziki və hüquqi şəxslərlə bağladığı müqavilələr əsasında həyata keçirilə bilər.

5.4. Milli Parkın ərazisində açıq məkanda reklam yerləşdirilməsinə icazəni İdarə verir.